# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 130** **Bakı şəhəri, 4 aprel 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Hərbi vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar"ın təsdiq edilməsi haqqında" 2018-ci il 30 noyabr tarixli 517 nömrəli, "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın təsdiq edilməsi barədə" 2018-ci il 4 dekabr tarixli 522 nömrəli, "Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının yaradılması və əsasnaməsinin təsdiq edilməsi haqqında" 2019-cu il 12 dekabr tarixli 475 nömrəli, "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 520 nömrəli, "Elektrik qurğularının quraşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 11 fevral tarixli 40 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləş-dirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli 517 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2464) ilə təsdiq edilmiş "Hərbi vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar"ın 1.5-ci, 3.2-ci, 3.4-3.6-cı, 3.9-cu və 4.1-ci bəndlərində, 2.1.1-ci, 2.1.6-cı, 2.1.8-ci, 2.1.9-cu və 3.1.2-ci yarımbəndlərində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2725; 2021, № 11, maddə 1408) ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın 24.7-ci bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 dekabr tarixli 475 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2059; 2021, № 3, maddə 277) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının tərkibi"nin 7-ci və 11-ci bölməsinin "Üzvlər" hissəsinin səkkizinci abzasında "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2100; 2021, № 10, maddə 1197) ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"nın 2.6.11.12-ci yarımbəndində "rabitə" sözü "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 191, № 4, maddə 479, № 9, maddə 1217) ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın 2.3.8.13-cü yarımbəndinin birinci abzasında və 2.4.7.1-ci yarımbəndin ikinci abzasında "Nəqliyyat, Rabitə və Yüksək Texno-logiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 8 aprel.- S.7.